

# Azərbaycan musiqisinin maestrosu



**Musiqi tariximizdə müəyyən mərhələlər var ki, həmin dövrlər milli mədəniyyətimizin inkişafında və ölkəmizin dünya miqyasında tanınmasında mühüm rol oynayıb. Bu mərhələlərdən biri, bəlkə də, ən əhəmiyyətlisi Azərbaycan musiqisinin "qızıl dövrü" hesab edilən böyük sənətkar Niyazinin musiqimizə əvəzsiz töhfələr verdiyi dövrdür. Melodik zənginlik, dərin emosional ifadə və milli ruhun dünya musiqi dəyərləri ilə ahəngdar şəkildə birləşməsi onun yaradıcılığında xüsusi yer tutur.**

Niyazi Tağızadə 1912-ci il avqustun 20-də Tiflisdə dünyaya göz açıb. Atası Zülfüqar Hacıbəyov Azərbaycan operasının yaradıcılarından biri olub. Anası isə Şərq musiqisinə böyük maraq göstərib. Kiçik yaşlarından incəsənətə həvəsi olan gənc Niyazi ilk təhsilini əmisi, dahi bəstəkar Üzeyir Hacıbəylidən və skripkaçı-professor L.Bretanitskidən alıb. Daha sonra təhsilini Moskvada davam etdirərək burada həm Qərb, həm də Şərq musiqi ənənələrini dərindən öyrənib. Bu illər ərzində əmisi Üzeyir bəy Hacıbəyov ilə müntəzəm olaraq yazışır və onun məsləhətlərini diqqətlə dinləyirdi.

1937-ci ildə Opera və Balet Teatrında dirijorluq vəzifəsinə dəvət olunan maestro bir il sonra Moskvada keçirilən Azərbaycan incəsənəti ongünlüyündə Müslüm Maqomayevin "Nərgiz" operasına dirijorluq edib. 1938-ci ildə Azərbaycan İncəsənətinin birinci Moskva dekadasından sonra Niyazi simfonik orkestrin baş dirijoru və bədii rəhbəri təyin olunub. Qısa müddətdə belə bir uğura imza atmaq onun nadir istedadından xəbər verirdi. O, Azərbaycan bəstəkarlarının simfonik və musiqili səhnə əsərlərinin,



kantata və oratoriyalarının ilk ifaçısı olmaqla yanaşı, bu əsərlərin təqdimatında da orijinal ifaçılıq üslubunu da formalaşdırıb. Maestro Niyazinin idarəçiliyində milli bəstəkarların əsərləri, o cümlədən Qara Qarayevin "Vətən", Fikrət Əmirovun "Sevil" operaları, eləcə də Qara Qarayevin "Yeddi gözəl"



və "İldırımlı yollarla" baletləri böyük nailiyyətlər qazanıb. 1961-ci ildə Leninqrad Opera və Balet Teatrında Arif Məlikovun "Məhəbbət əfsanəsi" baletinin ilk tamaşasını hazırlayan maestro, eyni zamanda Ankara Opera və Balet Teatrında Pyotr Çaykovskinin "Qaratoxmaq qadın", Cüzeppe Verdinin "Aida" operalarına, İstanbul Opera və Balet Teatrında türk bəstəkarı Ə.Saygunun "Koroğlu" operasının ilk tamaşasına və "Yunis Əmrə" oratoriyasına da dirijorluq edib.

Sənətkarın yaradıcılığı ölkəmizin baş orkestrinin tarixində parlaq bir dövrü əks etdirir. Bir çox musiqiçi Niyazini öz ustadı və himayədarı olaraq qəbul edir. Ömrünü dirijorluğa həsr etsə də, bəstəkarlıq fəaliyyəti ilə də məşğul olan sənətkar 30-cu illərin əvvəllərində ilk əsəri - "Od içində" fortepiano poemasını, daha sonra "Talış xalq mahnıları" mövzusunda fortepiano pyeslərini, Azərbaycanın ilk simfonik əsərlərindən olan "Zaqatala süitası"nı yazıb. Korifey Azərbaycan mahnılarından "Kəklik", "Qaragilə", "Xumar oldum", "Ay bəri bax" və s. simfonik orkestr üçün işləmiş, 1935-ci ildə "Rast" və "Şur" muğamlarını nota köçürmüşdür. Azərbaycan kinosu səsli filmlərə keçid etdiyi dövrlərdə Niyazi bu sahəyə də öz töhfəsini verib. Bir sıra film və teatr tamaşaları üçün bəstələnmiş musiqilər onun sənətinin müxtəlif istiqamətlərini əks etdirir. Bu əsərlər arasında "Kəndlilər", "Mənsur" və "Ceyhun və Ülkər" filmləri xüsusi yer tutur. "Almaz" filminin musiqisini atası Zülfüqar Hacıbəyovla birgə işləmiş, 1940-cı illərdə Süleyman Rüstəmin "Təbrizim" şeirinə mahnı bəstələmişdir. Eyni zamanda Niyazi öz yaradıcılığında bir dönüş nöqtəsi yaradaraq ilk dəfə "Xosrov və Şirin" operasını yazmışdır. Bu musiqilər onun müxtəlif janrlarda bacarıqla işlədiyini, kino və teatr sahələrində də böyük əsərlər yaratdığını göstərir.

Ömrünün sonunadək 23 ölkədə qastrol səfərində olan maestro 1961-ci ildə Londona səfər etmiş, konsert proqramında Bax, Bethoven, Çaykovski və digər dünya sənətkarlarının əsərlərini ifa etmişdi. Sənətkarın bütün konsertləri böyük uğurla keçmiş, London qəzetləri onun məharətindən yazmışdı. Üslubca kəskin fərqlənən musiqi əsərlərinə dirijorluq edərkən də maestro həmişə öz dəst-xətti ilə seçilib. Onun sənəti layiqincə qiymətləndirilib. SSRİ Xalq artisti, Sosialist Əməyi Qəhrəmanı adlarına, SSRİ Dövlət Mükafatı və Azərbaycan Lenin komsomolu, Beynəlxalq Nehru mükafatı laureatlarına layiq görülüb. 2017-ci ildə Bakının Niyazi küçəsində Niyazi Tağızadə-Hacıbəyovun Azərbaycan musiqi sənətindəki əvəzsiz rolu və irsini əbədiləşdirmək məqsədilə abidəsi ucaldılıb. Açılış mərasimində iştirak edən dövlət başçısı İlham Əliyev maestronun musiqi sahəsindəki uğurlarını və onun xalqımızın qəlbindəki xüsusi yerini vurğulayaraq abidənin əhəmiyyətini qeyd edib. Niyazinin musiqi irsi Azərbaycan mədəniyyətinin ayrılmaz bir parçasıdır.

**Röya RÜSTƏMLİ,**
**"Respublika".**